Yaşar Qurbanov
“İslam Nuru” kitabından
www.islamevi.az

yasareseri@islamevi.az

# Tovhidin Növləri

Elmlərin ən xeyirli və şərəflisi tovhid elmidir. Cihadın ən üstünü isə haqq əhlinin, tovhidi çirkləndirənlərə və bidətlər (dinə yenilik gətirmək) gətirənlərə qarşı olan cihadıdır. Qəflət içində yatan alim və üləmaların, dünya həyatına aldanıb batil etiqadlara uyduqları üçün, saf və təmiz olan İslam çirkləşib və dəyişdirilib, müsəlmanlar isə çirkablar içində batıb qalıblar. Buna görə də əhli sünnət vəl-camaat (Allah və Peyğəmbərin s.ə.v. yolunu davam etdirən camaat) etiqadında olan kəslər “əmri bi məruf” (yaxşılıqları əmr etmək) və “nəhyi ənil munkər” (pisliklərdən çəkindirmək) qılıncını çəkib insanların əqidəsini təmizləmək üçün çalışmalıdır.

Hər bir ağıllı kəs bilir ki, Kitab və sünnəyə (şəriət) qayıtmaq, müsəlmanların əvvəlki izzət və şərəfini qaytarmaq deməkdir. Buna görə də biz əqidəmizi xaricdən təmizləyib özümüzü saflaşdırmaq, batil olan şeyləri bildirmək üçün, insanların Allaha, ibadəti düzgün və ixlaslı (sidqlə) etməsi üçün bu risaləni yazmağı lazım bildik.

Allah təala: **«Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım»** deyir (əz-Zariyat, 56). Bu o deməkdir ki, ibadəti yalnız Allaha aid etmək lazımdır. Çünki, ibadətə layiq ancaq Odur. Bu Nuh peyğəmbərdən (ə) peyğəmbərimiz Məhəmmədə (s.a.v.) qədər gələn tovhid əqidəsidir.

Tovhid, əhli sünnət vəl-camaat əqidəsində ən əsas yer tutduğuna görə, onu tam və nöqsansız bir şəkildə öyrənmək lazımdır.

**Tovhidi, öyrənmək üçün aşağıdakıları bilmək lazımdır**

1. Tovhidi nəzəri tərəfdən öyrənmək üçün, Allahın Kitabından, Peyğəmbərimizin sünnəsindən və düzgün ağıldan istifadə etmək.

Bütün öyrəndiklərimizi, yəni ibadətlərin Allah üçün yerinə yetirilməsində ən gözəl tərzdə çalışmaq.

Tovhid nəzəri cəhətdən üç hissəyə bölünür.

1. **Rububiyyət**
2. **Uluhiyyət**
3. **Əsmai və sifət** (ad və sifətlər).

**RUBUBİYYƏT TOVHİDİ**

Rububiyyət, Allahın Rəbb adından irəli gəlir. Bunun bir neçə mənası var. «Tərbiyə edən, yardım edən, malik olan, ağa, vali və s. Şəriətdə isə Allahın insanları yaratdığına, onlara ruzi verdiyinə, onları dirildib, öldürdüyünə, Allahın qəza-qədərinə və Onun təkliyinə inanmaqdır.

**Rububiyyət tovhidinin** dəlilləri:

Allah, Öz Kitabında tovhidi Rububiyyəni belə zikr edib:

- **«Həmd aləmlərin Rəbbinədir», «Yaratmaq və əmr etmək, məgər Ona məxsus deyilmi?», «Yer üzündə sizin üçün hər şeyi O yaratdı», «Şübhəsiz ki, Allah ruzi verəndir. Güc və qüvvət sahibidir».**

Rəbbini inkar edən cahillərə bəs deyirik: Ağıl sahibi olan heç bir insan təsiredici qüvvə olmadan hər hansı bir şeyin və ya hərəkətin olmasını qəbul etməz. Deməli, yaradan olmasa, yaranış da olmaz. Deməli, bütün bu kainat və içindəkilər varsa, demək onu Yaradan da vardır. O da Allahdır. Bu barədə Allah təala belə buyurur: **«Yoxsa onlar heç nədən yarandılar? Yaxud onlar** (öz-özlərini) **yaradanlardır?»** (Tur, 35).

Bu tovhidi əvvəlki müşriklər də qəbul edirdilər. Xristian və yəhudilər də, bu tovhidi qəbul edirdilər. Bu tovhidi keçmişdə dəhrilər, indiki zamanda isə ancaq ateistlər qəbul etmir. Allah təala buyurur: **«Göyləri və yeri kim yaratdı»? soruşsan-onlar mütləq «Allah» deyə cavab verəcəklər»** (Loğman, 25). Müşriklər Allahın Rəbb olduğunu qəbul edirlər. Ancaq ibadətdə, məhəbətdə, itaətdə ilahlarını Allaha şərik qoşurlar. Bu tovhid insanı nə İslama daxil edir, nə də məsum bilib onu cəhənnəm əzabından qurtarır.

**ULUHİYYƏT TOVHİDİ**

Uluhiyyə «İlah» kəlməsindən əmələ gəlmişdir. Mənası da ibadət olunan Məbud deməkdir. Yəni İlah - Məbudun, ibadət olunanın ancaq Allah olduğunu bildirir. **«Allahdan başqa Tanrı yoxdur. Əbədi və Əzəli varlıq Odur»** (Bəqərə, 265).

Şəriətdə uluhiyyə: namaz, oruc, zəkat, həcc, qurban, nəzir, dua, qorxu, məhəbbət və s. yəni bütün ibadətləri ancaq Allah rizası üçün etmək üluhiyyə adlanır. İki şey olmasa tovhidi ülуhiyyə gerçəkləşməz:

1. Bütün ibadətləri qullardan hər hansı birinə deyil, ancaq Allaha məxsus etməli, Allahın məxsus olduğu sifətləri insanlara verməməlidir. Mömin ancaq Allah üçün ibadət edər. Allahdan başqası üçün namaz qılmaz, səcdə etməz, qurban kəsməz, and içməz, təvəkkül etməz.
2. İbadətləri Allahın öyrətdiyi kimi yerinə yetirmək lazımdır. Ümumiyyətlə, bütün işlərdə insan Allaha və Onun Rəsuluna tabe olmalıdır. Kəlimeyi tovhidin **«Lə ilәhə İlləllah, Muhəmmədən Rəsulullah»** mənası da məhz budur.

Allaha ibadət, itaət və əmrlərinə boyun əyməklə olur: - Bu da **«Lə ilәhə İlləllah»** kəlməsinin həyata keçirilməsidir. Allahın Rəsuluna tabe olmaq, yəni onun buyurduqlarına əməl edib, haram etdiklərindən uzaq olmaq isə **«Muhəmmədən Rəsulullah»** kəlməsinin həyata keçirilməsi deməkdir. Məhz bu iki əsas, Quran və Sünnə (yol, şəriət) insanı qurtuluşa aparır. **«Ya Məhəmməd! Sənə əmr edildiyi**

**kimi, düz** (yolda) **ol. Səninlə birlikdə iman gətirənlər də düz** (yolda) **olsunlar»** (Hud, 112).

Bu ayədə Allah təala Öz Rəsuluna və müsəlmanlara düz yolda olmaqlarını əmr edir. Bu da Quran və Sünnədir. Bundan başqa yolla gedən şəxslər artıq yoldan azmış kəslərdir. Axirətdə onların yeri cəhənnəmdir.

## ULUHİYYƏT TOVHİDİNİ KERÇƏKLƏŞDİRƏN ŞƏRTLƏR

**İXLAS:** İxlas qulun söz və əməllərində, daxilən və xaricən bütün niyyətlərinin ancaq Allah rizası üçün olduğunu göstərir. Yəni bu insan bütün əməlləri özünü insanlara göstərmək üçün yox, özünü kiməsə sevdirmək üçün yox, ancaq Allah rizası üçün edir. Allaha şərik qoşmaq, ixlasın əksidir. Bu kimsənin qəlbində riyakarlıq (özünü göstərmək) varsa, artıq o şəxsdə ixlas yoxdur. Riyakarlıq, özünü Allahdan başqasına göstərmək və sevdirmək üçün görülən əməldir ki, bu da şirkdir.

**TƏVƏKKÜL:** Təvəkkül sözünün kökü vəkalət sözündən gəlir. Yəni hər hansı bir işdə vəkil tütmaq, vəkilə arxalanmaq deməkdir. Buna görə də hər bir müsəlman ilk əvvəl Allahdan başqa bütün qüvvələri inkar edib, Allaha təvəkkül edərsə, Allah da onu Öz himayəsinə alıb, onu şər qüvvələrdən qoruyar.

**MƏHƏBBƏT:** Allah sevgisi tovhidi üluhiyyənin ən uca nöqtələrindən biridir ki, buna nail olan insan ən xöşbəxt insandır. **«Halbuki, iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir»** (Bəqərə,165).

**XOF VƏ RƏCA:** Qorxu və ümüd tovhidin ən böyük təməlidir, yəni özülüdür. Müsəlmana fərz (vacib) olan ancaq Allahdan qorxmaqdır. Allahdan başqasından qorxmamalıdır. Qorxunun yeri qəlbdir, ancaq o özünü başqa hərəkətlərdə də göstərir.

Mömin qorxu müddətində xeyir içindədir. Allahdan qorxmasa o yolunu azıb zəlalətə düşə bilər. Allahdan başqasından qorxmaq rəzilliyin ən aşağı dərəcəsidir. Bu qorxu bəzi vəziyyətlərdə əmələ gəlir. Məsələn: Allah üçün olan ixlası başqa bir şeylə qarışdırmaqdan, Dində fitnəyə düşməkdən və əməllərin qəbul olunmamasından qorxmaq, dünyada bəla və müsibətlərə düşməkdən, kasıbçılıq, xəstəlik və Allahın nemətlərinin əldən çıxmasından qorxmaq.

**SƏBİR:** Səbir tovhidin əsaslarından biridir. Qul dinə gəldikdə Allah təala onu imtahan edir və ona bəlalar göndərir. Ona görə də səbrin növləri var. Məsələn: İtaətdə səbir, günah və haramdan uzaq olmaq üçün səbir, Allahın qədərinə səbir, qəzəb halında səbir.

Müsəlman həmişə Rəbbinə inanıb, Onun qədərinə tabe olub, bu dünyanın keçici olduğunu nəzərdə tutub axirətə hazırlaşır və bu yolda qarşıya çıxan çətinliklərə səbir edir, çünki, o bilir ki, bu səbrin mükafatı cənnətdə ona çatacaq. Allah təala Öz Kitabında bu barədə belə deyir: **«Yalnız** (dünyada Allah yolunda çətinliklərə) **səbir edənlərə** (axirətdə) **saysız hesabsız mükafat veriləcəkdir»** (Zumər, 10).

**ŞÜKÜR VƏ HƏMD:** İman iki yerə ayrılır: şükür və səbir. Şübhəsiz ki, qul üçün ən əsas məsələ bütün işlərdə Allaha şükür edib, Ona həmd etməsidir. Allaha şükür edənin ruzisinin Allah tərəfindən artılacağına Quranda dəlillər çoxdur:

**«Əgər siz şükür etsəniz və iman gətirsəniz, sizə əzab vermək Allahın nəyinə lazımdır? Allah şükrə qiymət verən və hər şeyi biləndir»** (Nisa, 147).

**QEYRƏT VƏ ALLAH ÜÇÜN QƏZƏBLƏNMƏ:** Bu qulun Allahı üçün qeyrətə gəlməsidir.

Qulun qısqanclığı bütün əməllərinin Allahdan başqa heç kimə məxsus olmamasıdır. Hər bir işdə, əməldə Allah ilə birlikdə olmasıdır. İbadət etmədiyi vaxtda Allahdan ayrı olduğu üçün üzülüb, sıxılmasıdır. Çünki, vaxt-zaman müsəlman üçün ən dəyərli bir şeydir. Həm də müsəlman günah və haram gördükdə buna qarşı qəzəb göstərməlidir. Bir sözlə Allahı sevəni sevib, sevməyənə qəzəb etməlidir.

**DUA:** Bu duaların ancaq Allah təalaya yönəldilməsi deməkdir. Dua qulun dünya və axirəti üçün Rəbbindən kömək istəməsidir. Yəni qul öz zəifliyini Rəbbi qarşısında danır, güc və qüvvət sahibinin ancaq Allah təalanın olduğunu bildirir. Qul öz duası ilə Rəbbini tərif edir, bununla da öz Rəbbinə yaxınlaşmış olur. **«Haqq olan dua** (qəbul olunan dua) **yalnız Allaha olan duadır»** (Ər-Rəd, 14).

**İSTİĞASƏ:** İstiğasə, yardım diləmək, bəlaların uzaqlaşdırılmasını istəmək, qurtuluş deməkdir. İstiğasə iki növdür:

**İcazə verilən istiğasə:** Bu növ istiğasə bir kəsdən gücü çatan şeyi istəməkdir. Yəni biri suda boğulursa, yanırsa, yaxud başqa bir fiziki və maddi cəhətdən köməyə ehtiyacı varsa, imkanı olan adamdan bu köməyi istəyə bilər. Bu cür istiğasəyə icazə verilir.

**Haram olan istiğasə:** Bu Allaha aid olan bir şeyi başqasından istəməkdir. Məsələn: övlad istəmək, yağış yağdırmaq, şəfa istəmək kimi şeylər. Bu növ şeyləri gedib pirlərdən, qəbirlərdən, ölülərdən istəmək olmaz. Bu növ istiğasəyə icazə verilmir.

**ŞƏFAƏT:** Bir kəsin öz işini başqasının duası ilə Allaha ərz etməsidir. Şəfaət iki qisimdir:

**Şəriətdə səhih olan şəfaət:** Bu Allah təalanın izni ilə qəbul olunan şəfaətdir.

**Şirk olan şəfaət:** Bu o şəfaətdir ki, kim olur-olsun ölülərdən şəfaət istərsə, onların gücü çatmayan bir şeyi onlardan istəməyi ilə, onların nəyə isə qadir olduğuna inanır və onlardan kömək istəyir, onlar üçün qurban kəsir. Bununla da Allaha qarşı ən böyük günah işləmiş olur.

**TƏVƏSSÜL:** Təvəssül hər hansı bir şeyi Allahdan istəmək üçün, Allaha yaxınlaşmaqdır. Şəriət, saleh bir insanın başqa birisi üçün, Allahdan kömək diləməsinə icazə verir. Məsələn: Bir kor kişi gəlib Peyğəmbərə (s.a.v.) deyir: **«Allaha dua et mənim gözlərimi açsın»**. Peyğəmbər (s.a.v.) Allaha dua edir. Allah da Rəsulunun duasını qəbul edib, o kişiyə şəfa verir. Amma şəriətdə kimə isə vəzifə, dərəcə, məqam verilməsi üçün təvəssül yoxdur.

**AND İÇMƏK:** And içmək, and içdiyin şəxsi ucaltmaq deməkdir. Bu da öz növbəsində ibadətin bir növüdür. İbadət isə ancaq Allah təalaya məxsusdur.

Allahdan başqasına and içmək, həmin adamın Allah dərəcəsinə ucaldıb, Allaha şərik qoşmaqdır. Peyğəmbər (s.a.v.) demişdir: *«Kim Allahdan başqasına and içərsə, şirk etmiş olur»* (Səhih əbu Davud).

**Bismilləh:** Bu hər sözə və işə Allahın adı ilə başlamaq deməkdir. Allahdan başqasının adı ilə başlamağa icazə verilmir. Hətta Allahın adı ilə yanaşı başqasının adını çəkməyə də icazə verilmir.

**NƏZİR:** Müsəlmanın əslində ona vacib olmayan bir işi, könül xoşluğu ilə Allah rizası üçün görməsini özünə vacib etməsinə deyilir. Nəzirin Allahdan başqasına edilməsinə icazə verilmir. Çünki, nəzir ibadətdir. İbadət isə ancaq Allah üçündür.

Əziz müsəlman qardaşım, bil ki, tovhidi Uluhiyyə bütün peyğəmbərlərin gətirdiyi və haqqında kitablar endirdiyi, insanlara cənnət və cəhənnəm haqqında bildirən tovhiddir. Tovhidi Uluhiyyə, tovhidin ən uca mərtəbəsidir. Bu hər peyğəmbərin öz millətini haqqa dəvət edib, müşriklərə qarşı cihada çağırış tovhididir. Kim bu tovhidə əməl etməzsə o müşrik sayılır.

Tovhidi Uluhiyyənin məqsədi, Allaha ibadəti və sevgini başqalarına olan ibadət və sevgidən üstün tutmaqdır. Allahdan qorxmağı başqasından qorxmaqdan, başqasına itaət etməkdən üstün tutmaqdır. Bütün ibadətlərdə, məhəbbətdə, qorxuda, ümüd və and içməkdə Allaha sadiq qalıb şirk etməməkdir.

## ƏSMAİ VƏ SİFƏT TOVHİDİ
## (Allahın ad və sifətlərinin tovhidi)

Tovhidin bu növü ilə əlaqədar Allahın Kitabında və Rəsulullahın sünnəsində Allah ən gözəl adlarını bizə öyrədir. Səhabələr və tabiinlərdən (ardıcıllar) olan sələflərin keçmişdən indiyə qədər əqidəsi budur ki, Allah təala Öz Kitabında Özünü necə təsvir edirsə, Peyğəmbər (s.a.v.) öz sünnətində Rəbbinin ad və sifətlərini necə öyrədirsə biz də o cür qəbul etməliyik. **«Ona bənzər heç bir şey yoxdur, O hər şeyi Eşidən və Görəndir»** (Şura, 11).

Bu etiqadın birinci hissəsi, «Ona bənzər heç bir şey yoxdur» ayəsi Allahı kiməsə, nəyə isə bənzətməyə imkan vermir.

İkinci hissə: «O hər şeyi Eşidən və Görəndir» ayəsi isə Allahın sifətlərini təhrif edənlərə bir cavabdır. Çünki, Allah təalanın adları dərk olunmazdır, onları ağılla dərk etmək olmaz.

Əsmai və sifət tovhidi aşağıdakılara əsaslanır:

1) Allahın isim və sifətləri Kitab və Sünnədə bildirilmişdir.

2) Allahın isim və sifətlərini təşbihdən qorumalı, bu ad və sifətlərə olduğu kimi inanıb, insanlardan birini bu ad və sifətlərə bənzətməkdən uzaq olmalıyıq.

3) Allahın sifətlərinin necəliyini araşdırmaqdan uzaq olmalıyıq. Allah təala bizə isim və sifətlərini bildirmiş, lakin bunların keyfiyyətindən xəbər verməmişdir. İmam Malik (Allahın rəhməti onun üzərinə olsun!) «Rəhman ərşə isteva etdi (ucaldı)» cümləsi haqqında; necə gözəl söyləmişdir: «İsteva məlum, necə ucalmağı isə məchuldur, iman gətirmək vacibdir, bunun haqqında soruşmaq isə bidətdir». Səhabə və tabiinin yolunda olan hər bir şəxs Kitab və Sünnədə göstərilən ad və sifətləri, Cəhmiyyə və Mötəzilə əqidələrində qəbul etdiyi kimi qəbul etməməlidir,

çünki, bu məzhəblər isteva gəlməsini istila kimi təvil edirlər, yəni Allah ərşi kimdənsə zəbt edib -istila edib, bu artıq Allah təalaya şər atmaqdır. Bu isə Quran və Sünnədən kənar çıxmaqdır. Səhabə və tabiin hətta zəlalət əhli olan alim və filosofların fəlsəfəsindən və təvillərindən uzaq dururlar. Bizə də səhabə və tabiinin ardınca getmək lazımdır. Çünki, düzgün dini onlar bilirdilər, onlar peyğəmbərin dövründə yaşayıb öyrənmiş, elmli və bilikli olmuşdur. Quran və Sünnəyə tam əməl edir, bütün bunlara qəlbləri ilə inanırdılar. Bu Allah Rəsulunun (s.a.v.), onun səhabələrinin, tabiinin və onların yolu ilə gedən imamlar Əbu Hənifə, Şafii, Malik, Əhməd, Buxari, Müslüm, Tirmizi, Nəsai, Əbu Davud, Səvri, ibn Uyeynə və daha başqa hədis rəvayətçilərinin yoludur. Əgər Allahın izni ilə bu şəxslər olmasaydı, dinimiz batil etiqad sahiblərinin əlində əyləncəyə çevrilərdi.